# ƏSAS FƏALİYYƏTLƏR

## Yanvar-İyul 2023

BQXK




1992-ci ildən regionda fəaliyyət göstərən Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), münaqişədən zərər çəkmiş ərazilərdə çalışaraq vəziyyəti yaxından izləyir. Biz, hər zaman neytral vasitəçi kimi çıxış etməyə və humanitar problemlərin aradan qaldırılmasında dəstək göstərməyə hazırıq. 2023-cü ilin ilk yarısında, BQXK münaqişədən əziyyət çəkən ərazilərdə yaşayan insanlara yardım etmək üçün fəaliyyətlərini davam etdirmişdir. Ehtiyacı olan şəxslərə humanitar müdafiə və yardım təmin etmək üçün müxtəlif layihələr həyata keçirilmişdir.

## Önə çıxan məqamlar

**4,839**

nəfər risklərə dair maarifləndirmə və təhlükəsiz davranış sessiyalarında və forum teatr tamaşalarında iştirak etmiş, bununla da mina riskləri və partlamamış sursatlara qarşı dayanıqlığını artırmışdır.

**1,500**

xəbərdarlıq nişanı minalanmış əraziləri işarələmək üçün Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) ianə edilmişdir.

**4,068**

şəxs həyat şəraitinə dəstək olmaq üçün icra edilən layihələrdən bəhrələnmişdir.

**2,901**

şəxs BQXK tərəfindən təmir edilmiş tibb məntəqələrində müalicə məqsədli konsultasiyalardan və rutin vaksinasiya tədbirlərindən faydalanıb.

**996**

itkin ailəsi ilə əlaqə saxlanılıb, səhiyyə, hüquqi, inzibati, psixososial dəstək və s. məsələlərlə ilə bağlı 91 müraciətin yönləndirilməsinə dəstək göstərilib.

**946**

pxisoloji dəstək sessiyası BQXK-nın təlim keçdiyi psixoloqlar tərəfindən ehtiyacı olan uşaqlar və böyüklər üçün həyata keçirilib.

# RİSKLƏRƏ DAİR MAARİFLƏNDİRMƏ VƏ TƏHLÜKƏSİZ DAVRANIŞ

4,839 nəfər (münaqişənin təsirinə məruz qalmış 18 icmadan) risklərə dair maarifləndirmə və təhlükəsiz davranış sessiyalarında, forum teatr tamaşalarında iştirak etmiş, bununla da mina və partlamamış sursatların təhlükəsi barədə məlumatlanmışlar.
1500 xəbərdarlıq işarəsi minalanmış sahələri işarələmək üçün Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə (ANAMA) ianə edilmişdir. Mina və partlamamış sursatlarla çirklənmiş ərazilərdə 50 məlumat lövhəsi quraşdırılmışdır.
Ombudsman Aparatının 25 əməkdaşı mina qurbanlarına yardım mövzusuna həsr olunmuş Beynəlxalq Mina Təmizləmə Standartları haqqında iki günlük təlimdə iştirak edib.
Müdafiə Nazirliyinin 20 tibb işçisi Bakıda təşkil edilmiş Partlayış Travmalarına Yanaşma kursunda iştirak edib. Kursun məqsədi partlayıcı qalıqlarının təmizlənməsi işlərini aparan heyətə ilk və tibbi yardım göstərən səhiyyə və qeyri-səhiyyə əməkdaşlarının bilik və bacarıqlarını artırmaqdır.

# İQTİSADİ TƏHLÜKƏSİZLİK

2,184 şəxs bağbançılıq layihəsindən bəhrələnib. Layihə çərçivəsində iştirakçılara gündəlik qida məhsullarının yetişdirilməsində yardımçı olacaq müxtəlif vasitələr və toxum paylanılıb.
1,884 şəxs Kartofçuluq layihəsindən faydalanıb. Layihənin məqsədi münaqişənin təsir etdiyi ərazilərdə yaşayan şəxslərə yüksək keyfiyyətli toxum verməklə onların məhsul istehsalının artırılmasına dəstək göstərməkdir.
937 şəxs, o cümlədən mina qurbanları və Yaxın Şərqdən geri gətirilmiş uşaqların ailələri öz ehtiyaclarını qarşılaya bilmək üçün maddi dəstək alıb.
409 şəxs arıçılıq və quşçuluq mövzularında təlimlərdə iştirak edərək öz təsərrüfatlarını daha yaxşı idarə edə bilmək üçün bilik və bacarıqlara yiyələniblər.

# SƏHİYYƏ

2,901 şəxs BQXK tərəfindən təmir edilmiş tibb məntəqəlrində müalicə məqsədli konsultasiyalardan və rutin vaksinasiya tədbirlərindən faydalanıb.
1,358 şəxs (münaqişənin təsirinə məruz qalmış 8 icmada) tibbi məntəqələrinə Müharibə Yaralılarına Yardım dəstinin və digər tibbi ləvazimatların ianəsindən faydalanıb.
89 şəxs, o cümlədən Təcili yardım xidmətinin əməkdaşları, tələbələr, məktəb və bağça işçiləri ilk yardım təlimlərindən faydalanıb.
62 münaqişənin təsirinə məruz qalmış şəxs tibbi ehtiyaclarının qarşılanması üçün maddi yardımdan faydalanıb.
12 tibb işçisi “Təməl Təcili Yardım” təlimindən faydalanıb. Daha 5 tibb işçisi isə bu istiqamətdə Təlimçilərin Təlimində iştirak edib.



Aida Əliyeva/BQXK

Svetlana BQXK-nın Mikro-iqtisadi təşəbbüslərə dəstək layihəsindən faydalanaraq öz aylıq qazancını artırıb.



Aida Əliyeva/BQXK

BQXK üç rayonda aparılan ekshumasiya işlərinə texniki ekspertiza və müxtəlif ləvazimatların ianəsi ilə dəstək olub.

# ƏQLİ SAĞLAMLIQ VƏ PSİXOSOSİAL DƏSTƏK

946 pxisoloji dəstək sessiyası BQXK-nın təlim keçdiyi psixoloqlar tərəfindən ehtiyacı olan uşaqlar və böyüklərə yardım məqsədilə həyata keçirilib. 24 müəllim və məktəb direktoru uşaqlarda travmaların həssaslığı, onlarla ünsiyyətin qurulması, əqli sağlamlıq və psixososial dəstək ehtiyaclarının müəyyən edilməsi mövzusunda təlimlərdən faydalanıb.

121 uşaq (6-12 yaşlı) Mənim haqqımda kitab əsasında təşkil edilmiş psixososial dəstək fəaliyyətlərindən faydalanıb. Bu fəaliyyətlər Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) və BQXK-nın birgə təlim keçdiyi AzQAC könüllüləri tərəfindən həyata keçirilib.

21 şəxs birbaşa psixoloji dəstək sessiyalarından faydalanıb. Daha iki şəxsin ehtiyacları isə qiymətləndirilib.

19 tibb işçisi "Tibb məntəqələrində təməl psixoloji dəstək" təlimindən faydalanıb.

# MÜNAQİŞƏ İLƏ BAĞLI İTKİN DÜŞMÜŞ ŞƏXSLƏR

996 itkin ailəsi ilə əlaqə saxlanılıb, səhiyyə, hüquqi, inzibati, psixososial dəstək və s. məsələlərlə ilə bağlı 91 müraciətin yönləndirilməsinə dəstək göstərilib.

25 şəxs, kimlər ki, itkin düşmüş şəxslərin talelərinə aydınlıq gətirilməsi istiqamətində çalışan aidiyyəti qurumları təmsil edirlər, BQXK-nın təşkil etdiyi müxtəlif təlimlərdən faydalanıb.

Aidiyyəti dövlət qurumlarına itkin düşmüş şəxslərin ailələrinə cavabların verilməsində dəstək göstərmək məqsədilə BQXK texniki tövsiyələrini bölüşməklə və fərqli ləvazimatların ianəsi vasitəsilə 3 rayonda aparılmış ekshumasiya layihələrinə dəstək göstərmişdir.

Təlim keçmiş sirdaşlar şəbəkəsi üçün Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təmsilçilərinin iştirakı ilə 2 təlim təşkil edilib.

# SAXLANMA YERLƏRİNDƏ FƏALİYYƏTLƏR

24 başçəkmə (11 saxlanma məntəqəsində) məhbusların saxlanılma şəraitini, onlarla rəftarı qiymətləndirmək və ailə əlaqələrinə dəstək göstərmək üçün həyata keçirilmişdir.

# AİLƏ ƏLAQƏLƏRİNİN BƏRPASI

13 Qızıl Xaç Məktubu vasitəsilə Yaxın Şərqdə qalmağa məcbur olan şəxslərlə onların Azərbaycandakı qohumları arasında əlaqə yaradılmışdır.



BQXK sirdaşlar şəbəkəsi vasitəsilə itkin ailələrinə dəstək göstərməyə davam edir.




Mina və sursatlarla çirklənmiş ərazidə BQXK dəstəyi ilə məlumatlandırma lövhəsi quraşdırılıb.

## BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN TƏBLİĞİ

758 Müdafiə Nazirliyi zabiti və kursantı beynəlxalq humanitar hüquq (BHH) haqqında seminarlarda və BQXK-nın mandatı və fəaliyyətləri barədə təqdimatlarda iştirak edib.

138 hüquq mütəxəssisi BHH-nin əsasları və məhkəmə təminatları barədə təlimlərdən faydalanıb.

102 dövlət qurumu nümayəndələri təqdimatlar, təlimlər və seminarlar vasitəsilə BHH-ə dair fərqli mövzularda biliklərini artırıblar.

66 Müdafiə Nazirliyi təhsil ocaqlarının təlimatçıları "Beynəlxalq humanitar hüquq təlimatçılarının təlimi" seminarından faydalanıb.

54 tələbə BHH mövzusunda proqramdankənar tədbirlərdən, o cümlədən Cenevrəyə təhsil səfərindən, qonaq mühazirələrindən və məqalə müsabiqələrindən faydalanıb.

## AzQAC İLƏ ƏMƏKDAŞLIQ

52 AzQAC könüllüsü Risklər və təhlükəsiz davranış mövzusunda Təlimçilərin təlimində iştirak edib.

41 İlk Yardım Postu və Qızıl Xaç və Qızıl Aypara Haqqında Hərəkat haqqında 32 yayım sessiyası AzQAC könüllüləri tərəfindən 8 rayon və şəhərdə təşkil edilib.

13 AzQAC könüllüsü Mənim haqqımda kitab barədə iki günlük təlimdə iştirak edib. 6 AzQAC könüllüsü əqli sağlamlıq və psixososial dəstək və müvafiq rayonlarda tibb məntəqələrində xidmətlər barədə bir günlük təlimdən faydalanıb.

8 AzQAC rayon bölməsinə ilk yardım ləvazimatları ianə edilib. Füzuli rayon bölməsinin ofisi BQXK dəstəyi ilə təmir edilib.

## TƏHSİLİN ƏLÇATANLIĞI

120 məktəb şagirdi müxtəlif bacarıqlar və təkliflərin yazılması barədə təlimdən fadalanıb.

33 müəllim "SOS Uşaq Kəndləri – Azərbaycan" ilə birlikdə keçirilən "Uşaqların təhlükəsizliyi" təlimindən faydalanıb.


COMITE INTERNATIONAL GENEVE

BQXK

facebook.com/icrcbaku

Beynəlxalq Qızıl Xaç Komitəsinin
Bakı ofisi
Fətəlixan Xoyski pr.75, AZ11
Bakı, Azərbaycan
T +99412 465 63 34/35
F +99412 465 65 19
E-mail: baku@icrc.org
www.icrc.org

Beynəlxalq Qızıl Xaç Komitəsinin
Bərdə ofisi
Bahadur Hacıyev 21, AZ 0900
Bərdə, Azərbaycan
T +9942020 5 26 03
F +9942020 5 29 28
E-mail: barda@icrc.org


Ön səhifədəki şəkil: Aida Əliyeva/BQXK